2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə vətəndaşların seçki hüququnu pozan qərar və hərəkətlərdən (hərəkətsizliklərdən) şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Nailə Əsgərovanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 09 sentyabr 2024-cü il tarixli 67 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 10 avqust 2024-cü il

Mən, ekspert qrupunun üzvü Nailə Əsgərova 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 31 saylı Suraxanı ikinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Mahmudov Mahmud Avdı oğlunun səsvermə günü həmin seçki dairəsinin seçki məntəqələrində baş vermiş qanun pozuntularının araşdırılmasına və səsvermənin nəticələrinin etibarsız hesab olunmasına dair 09 sentyabr 2024-cü il tarixli 67 saylı şikayətini nəzərdən keçirərkən müəyyən etdim:

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci maddəsinin tələbinə görə seçki subyektləri şikayəti müvafiq seçki komissiyasına təqdim edə bilərlər. Şikayət ilkin olaraq yuxarı seçki komissiyası tərəfindən təmin edilməzsə, dairə seçki komissiyasının qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Göstərilənlərlə müəyyən edilir ki, müraciət Seçki Məcəlləsinin müvafiq tələblərinin pozulması ilə daxil olmuşdur və ona görə də araşdırılması üçün aidiyyatı üzrə 31 saylı Suraxanı ikinci seçki dairəsinin dairə seçki komissiyasına göndərilməlidir.

Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 31 saylı Suraxanı ikinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Mahmudov Mahmud Avdı oğlunun 09 sentyabr 2024-cü il tarixli 67 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

**Ekspert qrupunun üzvü**

**Nailə Əsgərova**